*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 344-349*

https://doi.org/10.62837/2025.3.344

**GÜNEL CEYHUN QIZI ZÖHRABOVA**
***Bakı Slavyan Universiteti***
***E-mail: gunelzohrabova77@gmail.com***

# ADLAR VƏ ONLARIN AZƏRBAYCAN DİLÇİLİYİNDƏ ÖYRƏNİLMƏSİ

**Xülasə**

Onomastika dildə olan xüsusi adların toplusu deməkdir. Lüğət tərkibinin böyük bir hissəsini formalaşdırır. Azərbaycan dilçiliyində bu sahə nisbətən yeni olsa da, bir çox elmi tədqiqatlar aparılmış və müəyyən nəticələr əldə olunmuşdur. Hər bir elm sahəsində olduğu kimi onomastikada da tədqiq tarixinin öyrənilməsi olduqca vacibdir. Məqalədə dilçiliyin bir bölməsi kimi onomastikanın tədqiqi məsələləri Azərbaycan dilçiliyində araşdırılır. Dilçilik tariximizdə onomastik vahidlərin tədqiqinə xüsusi töhfələr vermiş alimlər – Afad Qurbanov, Aydın Paşayev və digər tədqiqatçıların elmi araşdırmaları təhlil edilir. Onomastik tədqiqatlar bir millətin tarixi yaddaşının qorunub saxlanılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Məqalə Azərbaycan onomastikasının nəzəri əsaslarını və bu sahədə aparılan tədqiqatların əhəmiyyətini vurğulayır.

Məqalədə Azərbaycan dilçiliyində onomastik vahidlərin, xüsusilə də antroponimlərin tədqiqinə dair aparılmış elmi işlər, tədqiqat istiqamətləri və əsas nəticələr ümumiləşdirilmişdir. Onomastika xüsusi adların toplusunu öyrənən elm sahəsi kimi təqdim edilir və bu sahənin alt bölməsi olan antroponimikanın insan adlarının mənşəyi, quruluşu, funksional və mədəni yeri ilə bağlı məsələləri araşdırdığı vurğulanır. Azərbaycan antroponimikasının zənginliyi, tarixi qatlılığı və regional xüsusiyyətləri bu sahənin əsas araşdırma predmetlərindən biri kimi göstərilir. Məqalədə XIX əsrdən başlayaraq antroponimikanın tədqiq tarixinə nəzər salınır, A.Bakıxanovun "Adlar və titullar" əsəri ilk elmi mənbə kimi qeyd olunur. Keçən əsrin ortalarından etibarən bu sahənin sistemli şəkildə tədqiqinə başlanıldığı və Afad Qurbanov, Mədəd Çobanov, Aydın Paşayev, Musa Adilov, Bəhruz Abdullayev, Osman Mirzəyev kimi alimlərin bu istiqamətdə əhəmiyyətli töhfələr verdiyi bildirilir. Onların elmi əsərləri, monoqrafiyaları və izahlı lüğətləri Azərbaycan onomastikasının elmi əsaslarını formalaşdırmış, antroponimlərin təsnifi, semantikası, orfoqrafiyası və funksional cəhətləri geniş şəkildə araşdırılmışdır. Eyni zamanda, onomastik lüğətçiliyin inkişafı və bu sahədə hazırlanmış əsas lüğətlər – "Azərbaycan şəxs adlarının izahlı lüğəti", "Adlarımız", "Azərbaycan şəxs adlarının ensiklopediyası" və digər nəşrlər barədə məlumat verilir. Bu lüğətlərin həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyəti qeyd olunur. Nəticə olaraq, məqalə Azərbaycan onomastikasının tarixi inkişaf yolunu, elmi əsaslarını və gələcək

tədqiqatlar üçün zəmin yaradan fundamental araşdırmaları ümumiləşdirir, bu sahənin dilçilik və humanitar elmlər üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır.

**Açar sözlər:** dilçilik, onomastika, tədqiqat, onomastik vahidlər.

**Гюнель Джейхун кызы Зехрабова**

## ИМЕНА И ИХ ИЗУЧЕНИЕ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКОВЕДЕНИИ.

### Резюме

Ономастика — это совокупность собственных имён в языке. Она составляет значительную часть словарного состава. Хотя данная область в азербайджанском языкознании относительно новая, проведено множество научных исследований и достигнуты определённые результаты. Как и в любой другой научной области, изучение истории ономастики имеет большое значение. В статье рассматриваются вопросы исследования ономастики как раздела языкознания в азербайджанской лингвистике. Анализируются научные работы таких учёных, как Афад Курбанов, Айдын Пашаев и других исследователей, внёсших значительный вклад в изучение ономастических единиц в истории нашего языкознания. Ономастические исследования способствуют сохранению исторической памяти народа и её передаче будущим поколениям. Статья подчёркивает теоретические основы азербайджанской ономастики и значение проводимых в этой области исследований.

В статье обобщены научные исследования, направления и основные результаты, связанные с изучением ономастических единиц, особенно антропонимов, в азербайджанском языкознании. Ономастика представляется как наука, изучающая совокупность собственных имён, а её подраздел антропонимика занимается вопросами происхождения, структуры, функционального и культурного значения имён собственных. Подчёркивается богатство азербайджанской антропонимии, её историческая слоистость и региональные особенности. В статье прослеживается история исследований антропонимики, начиная с XIX века, в частности отмечается труд А.Бакыханова «Имена и титулы» как первое научное произведение в данной области. С середины прошлого века начались системные исследования, в результате чего значительный вклад внесли такие учёные, как Афад Курбанов, Мадед Чобанов, Айдын Пашаев, Муса Адилов, Бехруз Абдуллаев, Осман Мирзоев и другие. Их научные труды, монографии и толковые словари заложили научную основу азербайджанской ономастики, углублённо изучая классификацию, семантику, орфографию и функциональные особенности антропонимов. Также в статье освещается развитие ономастической лексикографии и представлена информация о таких значимых словарях, как

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 344-349*

«Толковый словарь азербайджанских личных имён», «Наши имена», «Энциклопедия азербайджанских личных имён» и других. Указывается как теоретическая, так и практическая значимость этих работ. В заключение подчёркивается, что статья обобщает историческое развитие, научные основы и фундаментальные исследования азербайджанской ономастики, демонстрируя её важность как для языкознания, так и для гуманитарных наук в целом.

**Ключевые слова:** языкознание, ономастика, исследование, ономастические единицы.

**Gunel Jeyhun qizi Zohrabova**

## NAMES AND THEIR STUDY IN AZERBAIJANI LINGUISTICS.

### Abstract

Onomastics refers to the collection of proper names in a language. It forms a significant part of the vocabulary. Although this field is relatively new in Azerbaijani linguistics, numerous scientific studies have been conducted, and certain results have been achieved. As in any scientific field, studying the history of onomastics is of great importance. This article explores the study of onomastics as a branch of linguistics within Azerbaijani linguistics. It analyzes the scientific research of scholars such as Afad Gurbanov, Aydin Pashayev, and other researchers who have made valuable contributions to the study of onomastic units in the history of Azerbaijani linguistics. Onomastic studies serve to preserve a nation's historical memory and pass it on to future generations. The article emphasizes the theoretical foundations of Azerbaijani onomastics and the importance of research conducted in this field.

The article summarizes scientific studies, research directions, and key findings related to the study of onomastic units, particularly anthroponyms, in Azerbaijani linguistics. Onomastics is presented as a field that investigates the totality of proper names, while its subfield, anthroponymy, focuses on the origin, structure, functional, and cultural significance of personal names. The richness, historical layering, and regional diversity of Azerbaijani anthroponymy are emphasized as central aspects of the research. The article traces the history of anthroponymic studies beginning from the 19th century, highlighting A. Bakikhanov's "Names and Titles" as the first scholarly work in this field. From the mid-20th century onward, systematic studies began, with significant contributions made by scholars such as Afad Gurbanov, Madad Chobanov, Aydın Pashayev, Musa Adilov, Bahruz Abdullayev, and Osman Mirzayev. Their scientific works, monographs, and explanatory dictionaries laid the foundation of Azerbaijani onomastics by extensively analyzing the classification, semantics, orthography, and functions of anthroponyms. The development of onomastic lexicography is also discussed, with references to important dictionaries

such as The Explanatory Dictionary of Azerbaijani Personal Names, Our Names, and The Encyclopedia of Azerbaijani Personal Names. These works are highlighted for their theoretical and practical value. In conclusion, the article offers a comprehensive overview of the historical development, scholarly foundations, and essential research in Azerbaijani onomastics, underscoring its significance for both linguistics and the broader field of the humanities.

**Keywords:** linguistics, onomastics, research, onomastic units.

Azərbaycan dilçiliyində onomastik vahidlərin, xüsusilə də antroponimlərin tədqiqi qədim və zəngin elmi ənənəyə malikdir. Ad – insanın fərdi kimliyini müəyyən edən, sosial-mədəni kod daşıyan fundamental dil vahididir. Onun əsas funksiyaları nominativlik, fərqləndiricilik və sosial tanıdılma kimi təsnif olunsa da, dil və cəmiyyətin qarşılıqlı münasibətlər sistemində bu funksiyalar daha geniş semantik yüklə zənginləşir.

Adların tədqiqi ilə məşğul olan elm sahəsi onomastika, bu sahədəki xüsusi altbölmə isə antroponimika adlanır. Antroponimika insan adlarının mənşəyi, formalaşma mexanizmləri, struktur xüsusiyyətləri və funksional-mədəni yeri ilə bağlı araşdırmalar aparır. Bu istiqamətdə aparılan elmi işlərdə Azərbaycan antroponimiyasının zənginliyi, regional fərqlilikləri, tarixi təbəqələşməsi və mədəni-mənəvi daşıyıcılıq xüsusiyyətləri geniş şəkildə öyrənilmişdir.

Antroponimika təkcə adların dil quruluşunu deyil, eyni zamanda adqoyma mədəniyyətini, dini təsirləri, cəmiyyətin dəyərlər sistemini də əks etdirir. Məsələn, bir çox valideynlər övladlarına dini, tarixi və ya müasir populyar mədəniyyətdən təsirlənmiş adlar verir. Bu da antroponimik materialların daim yenilənməsinə və dəyişməsinə səbəb olur.

Azərbaycan dilçiliyində antroponimika sahəsi geniş tədqiq olunan və daim aktuallığını qoruyan sahələrdən biridir. Bu elm sahəsi insan adlarının, soyadların, ata adlarının, ləqəb və təxəllüslərin mənşəyi, quruluşu, semantikası və tarixi inkişafını öyrənir. Antroponimlər xalqın dili, mədəniyyəti, dini inancı, tarixi keçmişi və ictimai münasibətləri ilə sıx bağlı olduğu üçün onların tədqiqi həm dilçilik, həm də ümumilikdə humanitar elmlər üçün xüsusi əhəmiyyət daşıyır.

Onomastika xüsusi adların toplusu kimi Azərbaycan dilçiliyində 1950-ci illərdən etibarən tədqiq edilməyə başlanılmışdır. Dilçiliyin gənc sahəsi olan onomastika elminin inkişafı üçün bir çox tədqiqatçı alimlərimiz bu istiqamətdə təqdirəlayiq işlər görmüşlər. Onomastikanın öyrənilməsi dilçilik elmi ilə məhdudlaşmır, həmçinin tarix, coğrafiya və sosial elmlər üçün böyük əhəmiyyət kəsb edir. Bu sahənin araşdırılması dilin inkişafı, təkamülü, xalqların kökləri və bir sıra etnik dəyişikliklər barədə məlumatlar əldə etməyə imkan verir.

Azərbaycan dilçiliyində onomastik vahidlər bir çox tədqiqatçı alimlərimiz tərəfindən həm nəzəri, həm də praktik cəhətdən araşdırılmışdır. Xüsusilə də,

A.Qurbanov, M.Çobanov, A.Paşayev, M.Adilov, Ə.Tanrıverdi, Z.Sadıqov, B.Abdullayev, O.Mirzəyevin adı vurğulanmalıdır.

Onomastikanın tədqiqinin keçən əsrin ortalarından etibarən başlanıldığını desək də, dilçilik tariximizdə ilk tədqiqat xarakterli iş XIX əsrə aiddir. 1843-cü ildə çap edilən A.Bakıxanovun "Adlar və titullar" əsəri ilk tədqiqat xarakterli bir iş kimi antroponimiyamız haqqında müəyyən fikir formalaşdırır. Müəllif əsərdə titul bildirən apelyativlərdən yaranmış antroponimlərdən bəhs etmişdir.

Bu sahədə yazılan ilk dərslik isə Mədəd Çobanova aiddir. "Azərbaycan antroponimiyasının əsasları" adlı dərslikdə müəllif antroponimlərin tədqiq tarixini, onların inkişafını, orfoqrafiyasını, poetikliyini araşdırmışdır.

Keçən əsrdə bu sahənin tədqiqində Afad Qurbanovun rolu əvəzolunmazdır. İlk dəfə 1986-cı ildə onomastika problemlərinə dair konfrans məhz Qurbanovun rəhbərliyi ilə keçirilmişdir. Həmin dönəmdən etibarən bu sahə ilə bağlı bir çox əsərlər, monoqrafiyalar, məqalələr çap olunmuşdur. A.Qurbanov öz əsərlərində dilimizin onomalogiyasını sistemli şəkildə izah etmiş, onomalogiyanın problemləri, təsnifi, şöbələri, metodları, inkişafı, üslubi xüsusiyyətlərini şərh etmişdir. Müəllifin "Azərbaycan şəxs adları ensiklopediyası" kitabı xüsusən təqdirəlayiqdir. Ensiklopediyada antroponimlər nəzəriyyəsinə dair mülahizələr, onların yaranma yolları və mənşəcə tərkibi təsvir etmişdir. Həmçinin antroponimlərin quruluşca növlərinə və onların leksik – semantik xüsusiyyətlərini araşdırmışdır. Qurbanov, eyni zamanda, əsərdə adseçmə zövqündən, valideynlərin advermə zamanı müraciət etdiyi advermə ənənələrindən bəhs etmişdir. Bundan başqa, antroponimlərin orfoqrafiyası və orfoepiyası məsələlərinə də toxunulmuşdur. Ensiklopediyanın bir hissəsi isə adların ensiklopedik şərhinə həsr edilmişdir. Bu bölmə, təbii olaraq, dilimizin bütün şəxs adlarını deyil, sadəcə leksik – semantik mənası bir qədər aydın olmayan şəxs adlarını əhatə edir. Ensiklopedik şərhlə yanaşı, antroponimlərin əlifba sırası üzrə siyahısı verilmişdir.

Azərbaycan dilçiliyində mühüm yeri olan tədqiqatçı alimlərimizdən biri də Aydın Paşayevdir. Onu əbəs yerə "Azərbaycan onomastikasının fəhləsi" adlandırmayıblar. Müəllifin bu sahədə bir çox dəyərli işləri vardır. O, "Azərbaycan şəxs adları" (1996), "Azərbaycan şəxs adlarının leksik problemləri" (1997), "Azərbaycan antroponimikası" (2015) monoqrafiyalarında əsas və köməkçi ad kateqoriyalarını dərindən araşdırmış, onların bənzər və fərqli xüsusiyyətlərini təhlil etmişdir. Paşayevin "Türk mənşəli beynəlmiləl onomastik vahidlər" (2017) adlı monoqrafiyası müqayisəli onomastikanın dəyərli əsərlərindəndir. İki fəsildən ibarət olan monoqrafiyanın ilk fəslində dünya dillərinin təsnifi geniş şəkildə şərh edilmişdir. Digər fəsildə isə türk mənşəli beynəlmiləl onomastik vahidlər ("ana", "baba", "türk", "gün", "ay" və b. Komponentli) araşdırılmışdır. Aydın Paşayevin Musa Adilovla ortaq işi olan "Azərbaycan onomastikası" əsəri özünün orijinallığı ilə seçilir. Terminlərin sərhədlərinin dəqiqləşdirilməsi və konkret bir sahə, yəni

onomastika üzrə terminlərin toplanması ən vacib ehtiyaclardan biri olduğu üçün bu izahlı – terminoloji lüğətin hazırlanması dilçilik sahəsinin ən dəyərli işlərindəndir. Əsərdə yüzlərlə termin toplanmış və onların izahları qeyd olunmuşdur.

Onomastik leksikoqrafiyanın şöbələrindən biri də antroponimik lüğətçilikdir. Antroponimik lüğətçilik antroponimlərdən ibarət lüğətlərin yaradılmasının qanunauyğunluqlarını araşdırır. Antroponimik lüğətçiliyin işi antroponimləri toplamaq, onları sistem halına gətirməkdir. Dilimizin onomastik sisteminin məhz praktik cəhətdən araşdırılması indiyə qədər ərsəyə gəlmiş onomastik lüğətlərin hesabınadır. Onomastik lüğətçilik tariximizdə bir sıra lüğətlərin adını xüsusilə vurğulamalıyıq. Bunlardan biri Bəhruz Abdullayevin "Azərbaycan şəxs adlarının izahlı lüğəti" -dir. Lüğətdə 1000-ə yaxın qadın və kişi adları verilib. Bu sahədə hazırlanan ilk lüğətlərdən olduğu üçün müəyyən nöqsanları da vardır.

Bir digər lüğət Osman Mirzəyevin "Adlarımız" lüğətidir. Müəllif lüğətdə işlək adları geniş şərh edir. Antroponimlərin tərcümeyi-halını verir. Onların mənalarından əlavə mənşə xüsusiyyətlərini də qeyd edir. Bunlardan əlavə müəllif 715 oğlan, 455 qız adı siyahısı verir. Lüğətin həm elmi, həm də praktik əhəmiyyəti vardır. Eyni zamanda ensiklopedik səciyyə daşıyır. Qeyd olunmalı digər lüğət isə A.Paşayev və A.Bəşirovanın müəllifi olduğu "Azərbaycan şəxs adlarının izahlı lüğəti" -dir. Lüğətdə müəlliflər adları əlifba sırası üzrə kişi və qadın adları olaraq ayrıca sistemləşdirmişlər. Qeyd edək ki, lüğətdə 6000-dən çox kişi, 4000-dən çox qadın adı əks olunub.

**Nəticə:** Onomastik vahidlərin, xüsusən də, antroponimlərin tədqiqi hər zaman elm adamlarının diqqət mərkəzində olmuşdur. Azərbaycan antroponimikası həm dilçilik, həm də tarix və mədəniyyət baxımından əhəmiyyətli bir tədqiqat sahəsidir. Bu sahədəki araşdırmalar insan adlarının mənşəyini, quruluşunu, semantikasını, sosial və etnik mənsubiyyətlə bağlı xüsusiyyətlərini üzə çıxarır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayev B. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Azərnəşr, 1985
2. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları.
3. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. II cild. Bakı: Nurlan, 2004
4. Paşayev A. Azərbaycan şəxs adları.

**Rəyçi:** *filologiya üzrə fəlsəfə doktoru*
*Dosent* **G.F.Əliyeva - Koşkun**